Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Azərbaycanda otüstü hokkeyin inkişafı və mövcud problemləri

*Nuriyev Y.Q.*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** otüstü hokkey, məşqçi, klub, komanda, Avropa Klub Çempionatı, diviziyon, stadion və s.

Otüstü hokkeyin yaranma tarixi tam dəqiqləşməyib. Qədim Romada hokkeyə oxşar oyun təsviri, 1330-cu ildə Fransada tapılan oyun haqda yazılar belə deməyə əsas verir ki, otüstü hokkey ən qədim idman növləri sırasına daxildir.

Müasir otüstü hokkey 1908-ci ildə qeyri-rəsmi olaraq Olimpiya Oyunlarında nümayiş etdirilsə də yalnız 1928-ci ildə Amsterdamda keçirilən Oyunların proqramına kişi komandalarının mübarizəsi daxil edilib. Qadın hokkeyçilər isə bu mötəbər kompleks yarışlara yalnız 1980-ci ildə Moskvada qoşula biliblər.

Keçmiş SSRİ məkanında kişilər 1969-cu, qadınlar isə 1977-ci ildən otüstü hokkey idman növü ilə yaxından tanış olublar.

Azərbaycanda bu olimpiya idman növünün inkişafını üç mərhələyə ayırmaq olar: Birincisi - SSRİ dövrü, ikincisi - müstəqillik qazanandan sonra (1991-ci 2000-ci illər) və üçüncüsü isə 2001-ci ilin əvvəlindən 2015-ci ilin axırına kimi..

Otüstü hokkey 1969-cu ilə qədər mövcud olsa da ölkəmizdə öz tərəqqi yoluna məhz həmin ildən qədəm qoyub. O zaman Moskvada otüstü hokkeyin inkişafı ilə əlaqədar təşkil olunan seminara respublikamızdan Sumqayıtda futbol məşqçisi vəzifəsində çalışan İsa Qasımov və Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda futbol kafedrasına rəhbərlik edən Boris Zayons dəvət olunublar. Həmin toplantıdan qayıdan İsa Qasımov Sumqayıtda, Boris Zayons isə Bakı şəhərində hokkey bölməsi və daha sonra komanda yaratmağa nail olublar. Bakıda Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun nəzdindəki idman klubunda(BTI IK), Sumqayıtda isə “Spartak” idman cəmiyyətinin eyni adlı komandası yaradılıb. Elə həmin dövrdən SSRİ birinciliyinin zonalar üzrə seçmə oyunlarının iştirakçısı olan klublarımızdan ilk olaraq Bədən Tərbiyəsi İnstitutunun hokkeyçiləri 1975-ci ildə 1-ci liqanın qalibi kimi SSRİ çempionatının güclülər dəstəsində yarışmaq hüququ qazanıblar. Sonralar müxtəlif adlar altında (“Buravestnik” və “Azərbaycan Neft və Kimya İnstitutu”) yarışan kişi hokkeyçilərimiz 1979-cu və 1980-ci illərdə güclülər dəstəsində SSRİ çempionatının bürünc medallarına sahib olmuşlar. 1979-cu ildə keçirilən SSRİ xalqlarının VII spartakiadasında da Azərbaycanın kişi otüstü hokkeyçilərdən ibarət yığma komandası halında III yeri tutmuşdur. 1980-ci ildə isə İtaliyanın Turin şəhərində öz ölkələrinin(SSRİ-nin) çempionatlarında bürünc medallara layiq görülən klubların Avropa kuboku uğrunda turnirində “Azərbaycan Neft Kimya İnstitunun” komandası bütün rəqiblərinə



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

qalib gələrək həlledici final oyununda İspaniyanın “Real klub Rolo de Barselona” klubunu da məğlub edərək fəxri kuboku ölkəmizə gətirmişdir. Beynəlxalq Olimpiya Komitəsinin 1980-ci ildə Moskvada sayca XXII Yay Olimpiya Oyunlarının keçirilməsi qərarı bir çox idman təşkilatlarını, federasiyaları ciddi hərəkətə gətirdi. 1977-ci ildə qadınlardan ibarət otüstü hokkey komandalarının yaradılması və onun Moskvada çıxışa hazırlaşması məsələsi bütün respublikalarda olduğu kimi, Azərbaycanda da böyük canlanmaya səbəb olub. Bu dəfə də təşəbbüs Bədən Tərbiyəsi İnstitutundan gəldi. Ali təhsil ocağının nəzdindəki İdman Klubunda qadın otüstü hokkeyçilərdən ibarət bölmə yaradılıb. Bu işdə İdman Klubunun o zamankı sədri, hazırda İdman Akademiyasının dosenti vəzifəsində çalışan Baleri Bağırovun xidmətləri sayəsində qadın hokkeyi də həyata vəsiqə aldı. İlk məşq 1977-ci il martın 14-də institutun stadionunda baş məşqçi Mixail Penkovun rəhbərliyi ilə keçirilib. İnamlı addımlarını Bədən Tərbiyəsi İnstitutunun İdman Klubunda atan və otüstü hokkeyin sirlərini mənimsəməyə başlayan qızlarımızdan bəziləri hətta sonralar SSRİ yığma komandalarına da cəlb olunublar (1-3).

1978-ci ildə SSRİ çempionatının güclülər və I dəstəsində mübarizə aparacaq iştirakçıları müəyyənləşdirmək üçün qadın hokkeyçilər arasında seçmə oyunlar keçirilib. SSRİ İdman Komitəsinin mükafatları uğrunda təşkil edilən həmin yarışın ilkin mərhələsində 23 komanda mübarizə aparıb. Onlar püşk nəticəsində 6 zonaya bölünüblər. Azərbaycanın qadın hokkeyçiləri Moskva vilayətinin “Spartak” komandası, Ermənistan və Gürcüstan təmsilçiləri ilə birlikdə 3-cü zonaya düşüblər. Bu turnirin final mərhələsi oktyabrın 5-dən 11-dək Daşkənddə, VII-XII yerlər uğrunda yarış isə 1978-ci il 12-17 sentyabr tarixində Bakıda keçirilib. Respublikamızın paytaxtında qızlarımız Qazaxıstan hokkeyçiləri ilə birgə güclülər dəstəsində yarışmaq hüququ qazanıblar.

SSRİ-nin sayca I çempionatında qadın hokkeyçilərimiz VI yerə layiq görülüblər. 1980-ci ildə SSRİ çempionatında komandamız artıq irəliyə doğru daha bir addım atıb (V yer). 1982-ci ildə isə “Spartak” (Bakı) klubu ölkə birinciliyində fəxri III mükafata sahib olub. 1983-cü ildə qadın hokkeyçilərimiz SSRİ xalqlarının VII spartakiadasında da yığma komanda səviyyəsində həmin nailiyyəti təkrarlayıblar.

Bakılı Tatyana Şvıqanova 1980-ci ildə Moskvada keçirilən Olimpiya Oyunlarında, bir il sonra isə Argentinada təşkil olunan dünya çempionatında SSRİ-nin seçmə kollektivinin heyətində bürünc medala layiq görülüb. Sumqayıt hokkey məktəbinin yetirməsi Zeynəb Nuriyeva 1980-1991-ci illərdə SSRİ-nin yeniyetmələrdən, gənclərdən və usta hokkeyçilərdən ibarət yığma komandaların heyətində çıxış edib. 1990-cı ildə Belçikada keçirilən Avropa çempionatında isə bürünc medal qazanıb.

Azərbaycan müstəqillik qazanandan sonra təəssüf ki, həyatımızın bütün sahələrində olduğu kimi, otüstü hokkey idman növü də bir neçə il fəaliyyətsiz qaldı.Yalnız ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bədən tərbiyəsi və idmana dövlət qayğısı nəticəsində hokkeyimizdə də bir canlanma hiss olunmağa başlandı. 1994-cü ildə Bakı Neftayırma zavodunun “Azəri” idman kulubunda kişi və qadın komandaları yenidən fəaliyyətlərini bərpa etməyə başladılar. Tahir Zeynalov kişilərdən, Adil Paşayev isə qadın hokkeyçilərdən ibarət “Azəri” klublarına baş məşqçi təyin olundular. Doğrusu, məşqlər təşkil edilsə də nə kişi, nə də



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

qadın hokkeyçilərimizin yarış təcrübəsinin artırılması yönümündə lazımi tədbirlər görülmürdü. Çünki, Azərbaycanda respublika birinciliyi keçirmək üçün cəmi iki kişi və bir qadın komandası var idi. Elə bu səbəbdən də hokkeydə yenidən durğunluq dövrü başlandı. Təəssüf ki, Otüstü Hokkey Federasiyasının o dövrdəki rəhbərliyi çıxış yolunu Ukrayna çempionatına qoşulmaqda tapdı.Qadın və kişi otüstü hokkeyçilərdən ibarət klublarımız həmin ölkənin təmsilçiləri ilə yalnız 1 il birgə mübarizə apara bildilər. Ağır maliyyə problemlər üzündən Ukrayna səfərləri də yarımçıq qaldı. Buna baxmayaraq, 1996-ci ildə Azərbaycanın qadın hokkeyçiləri Pakistanda keçirilən İslam Ölkələrinin Oyunlarında 3-cü yeri tutdular. Bir il sonra elə həmin ölkədə Beynəlxalq “Qızıl Turnir”də isə yığmamız bir addım irəliləyərək gümüş medala sahib olub (4-5).

Bakı və Sumqayıtın kişi hokkeyçilərindən təşkil olunan milli komandamız uzun fasilədən sonra 1998-ci ildə Yunanıstanın Afina şəhərində Avropanın Cənub-Şərq çempionatında iştirak edərək bürünc medala layiq görülüb. Təəssüf ki, yenidən hokkeyçilərimiz çətin maliyyə problemləri ilə üzləşib və bu sahədə vəziyyət getdikcə ağırlaşmağa başlayıb.

Müstəqilliyimizdən 10 ilə yaxın müddət keçəndə isə otüstü hokkeyin mövcudluğu belə sual altına düşmüşdü. Federasiya qitə və beynəlxalq qurumlara üzvlük haqqı ödəmədiyindən milli komandalarımız növbəti rəsmi yarışlarda iştirak etmək hüququndan məhrum edilmişdilər. Xoşbəxtlikdən bu çətinliklər çox davam etmədi. 2000-ci ilin axırlarında Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev idman ilinin yekunlarına həsr olunan yığıncaqda ölkəmizdə komandalı idman növlərinə qayğının artırılmasını tövsiyə edərkən bu məsələ ilə əlaqədar müxtəlif idman qurumları və təşkilatlar üzərinə məsuliyyətli vəzifələr qoydu. Elə olimpiya idman növü olan otüstü hokkey təsərrüfatındakı canlanma da həmin dövrdən başlandı. 2001-ci ilin fevral ayında nəhayət ki, uzun sürən durğunluq aradan götürüldü. Otüstü Hokkey Federasiyasının rəhbərliyində aparılan dəyişikliklərdən sonra hokkeyimiz özünün yeni inkişaf-tərəqqi mərhələsinə qədəm qoydu. Kişilərdən və qadınlardan ibarət yığma komandaların veteran hokkeyçilərinə məşqçilik fəaliyyətinə keçmək təklif olundu. Artıq 2001-ci ilin axırlarına yaxın həmin məşqçilər üçün seminarlar təşkil edildi və hələ sovet dönəmində mümkün olmayan bir addım atıldı. Şimal bölgəsində Qusar və Xaçmaz rayonlarında, cənubda Astara, Lənkəran, Cəlilabad və sonralar Masallıda, eləcə də Mingəçevir, Gəncə və Şəki şəhərlərində otüstü hokkey bölmələri fəaliyyətə başladı.

2002-ci ilin yazında artıq ölkə çempionatı da təşkil edildi. Bölgə təmsilçiləri Sumqayıt və Bakı hokkeyçilərindən ayrıca yarışda mübarizə apardılar. Növbəti ilin Azərbaycan birinciliyində bütün komandalar birgə yarışdılar və yekunda ilk 6 yeri tutanlar güclülər, 2-ci altılıq isə I dəstəni formalaşdırdı. Sonralar yaz-payız sistemi ilə keçirilən çempionatımızda kişilərdən ibarət 13 komanda 3 dəstədə yarışmağa başlayıb. Qadınların birinciliyində isə 6 klub mübarizəyə qoşulsa da sonralar onların sayı 4-ə endi. Bu yarışlarla yanaşı 15 və 18 yaşlı oğlanlardan ibarət(hərəsində 8 klub olmaqla) komandalar da ölkə birinciliyində qüvvələrini sınamağa başladılar. Demək olar ki, kütləviliyin bünövrəsi qoyuldu. Həmin dövrdə beynəlxalq aləmdə də hokkeyçilərimizin uğurlu çıxışları bir-birini əvəz etməyə başlamışdı. Bu yarışlarda qadınlarımızın nailiyyətləri daha çox idi. 2002-ci ildə Şaulyayda keçirilən Avropa çempionatının seçmə yarışlarında qadınlardan



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

ibarət milli komandamız qitə birinciliyinin final mərhələsində iştirak etmək hüququ verən 2 vəsiqədən birinə sahib oldu (II yer). 2003-cü ilin sentyabr ayında İspaniyada keçirilən final mərhələsində yığmamız Avropanın 12 kollektivi arasında yalnız 9-cu nəticə göstərə bilib.

Çempionatdan dərhal sonra Avropa Hokkey Federasiyası yarışların keçirilməsi formatında dəyişiklik etdi. Belə ki, iki ildən bir təşkil olunan qitə çempionatında 3 divizyon müəyyənləşdirildi. Barselona yarışlarının yekununda ilk 8 yeri tutanlar güclülər dəstəsində, IX-XII yerlərə layiq görülənlər və qitədə reytinqli yüksək olan daha 4 milli komandanın “Trofi” və nisbətən 8 zəif ölkə hokkeyçilərinin isə “Çelenc” turnirlərində iştirak etməsi qərara alındı.

2003-cü il Azərbaycan hokkeyi üçün Bakıda süni örtüklü hokkey kompleksinin tikilib istifadə verilməsi ilə də əlamətdar olub. Elə həmin il qadın hokkeyçilərindən ibarət “Atasport” klubu Avropa kuboku uğrunda “Çelenc” turnirini 1-ci yerdə başa vuraraq növbəti mövsümdə “Trofi” yarışlarında iştirak etmək hüququ qazanıb. 2004-cü ildə həmin turnir Bakıda təşkil olundu və baş məşqçi Adil Paşayevin rəhbərliyi ilə “Atasport” yenidən yarışda qalib adını qazanaraq Avropanın 8 ən güclü klubu sırasına daxil olub.

2005-ci ildə Hollandiyanın Hertogenboş şəhərində qadın otüstü hokkeyçilərimiz Avropa Klub Çempionlarının Kuboku uğrunda turnirdə yalnız final görüşündə yerli “Hertogenboş” klubuna məğlub olaraq gümüş medallara layiq görüldülər. Bu isə Azərbaycanın komandalı idman növləri arasında bütün dövrlər üçün ən yüksək nəticə kimi tarixə düşdü. Bu münasibətlə ölkə başçısı,MOK-un prezidenti İlham Əliyev komanda üzvlərini və federasiya rəhbərliyini rəsmi qəbul edərək. qazanılan nailiyyət münasibəti ilə təbrik etmişdi.

Elə həmin 2005-ci ildə Azərbaycan Otüstü Hokkey Federasiyasına daha bir etimad göstərildi və qadın otüstü hokkeyçilərdən ibarət milli komandaların Avropa Çempionatının “Trofi” yarışları Bakıda keçirildi. Yığmamız qrupda 1-ci yeri tutaraq final görüşündə İtaliya təmsilçilərinə də qalib gəlməklə növbəti il qitənin 8 ən güclü kollektivi arasında yarışmaq hüququ əldə edib.

2006-cı ildə milli komandamız Roma şəhərində ilk dəfə qoşulduğu Dünya çempionatının seçmə yarışlarında 3 il əvvəl qitə birinciliyində olduğu kimi, 12 iştirakçı arasında 9-cu yeri tutub.

2007-ci ilin iyun ayında Bakı şəhərinə Avropa çempionatı və qitə kuboku uğrunda yarışlardan sonra daha bir mötəbər turniri təşkil etmək həvalə olundu. “AtaHoldinq Çelenc” kuboku uğrunda yarışda dünya reytinq cədvəlində ikinci altılığa daxil olan Çin, Koreya,Yeni Zelandiya, ABŞ, İngiltərə və Azərbaycanın milli komandaları mübarizə aparıb. Qadın hokkeyçilərimiz Bakıda keçirilən mötəbər yarışda mükafatsız qalsalar da mütəxəssislər onların güclü rəqiblərə qarşı layiqli müqavimət göstərdiklərini xüsusi qeyd etdilər.

Həmin ilin sentyabr ayında İngiltərənin Mançester şəhərində Avropa çempionatının güclülər qrupunda ilk dəfə debüt edən milli komandamız acınacaqlı da olsa, yalnız topların fərqinə görə yarımfinal mərhələsindən kənarda qalıb. Yekunda isə qadın hokkeyçilərimiz 5-ci yeri tutublar. Ancaq həmin yarışda ilk üçlüyə düşməklə Pekin Yay Olimpiya Oyunlarına birbaşa vəsiqə də qazanmaq olardı. Təəssüf ki, hokkeyçilərimiz bu imkandan bəhrələnə bilmədilər.

Növbəti ilin aprel ayında milli komandamız Çin Xalq Respublikasına getmək üçün tarixi şans qazandı. Beynəlxalq Hokkey Federasiyası Pekin olimpiadasında mübarizə aparacaq daha 3 iştirakçını müəyyən etmək üçün 3 turnirdən



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

birinin Bakıda keçirilməsinə qərar verdi. Həmin yarışa pakistanlı məşqçilər korpusu tərəfindən hazırlaşan yığmamız ilkin mərhələdə Belarus, Çili, Keniya, və Ukrayna təmsilçiləri ilə görüşlərdə qələbə qazandıqdan və ispanlara məğlub olduqdan sonra ikinci yerin sahibi kimi finalda yarışmaq hüququ əldə etdi.Təəssüf ki, qadın hokkeyçilərimiz həlledici final görüşündə bütün oyunları qələbə ilə başa vuran İspaniya millisinə 2:3 hesabı ilə uduzaraq Pekinə getmək arzularını həyata keçirə bilmədilər. Ancaq həyat davam etdiyi kimi, hokkeyçilərimizin Olimpiya Oyunlarında iştirak etmək istəyi də tükənmirdi. Bu şərəfli və məsul vəzifəni növbəti London Yay Olimpiya Oyunlarına qədər gözləmək lazım gəlirdi. Elə federasiya rəhbərliyinin Cənubi Koreyadan dəvət etdiyi məşqçilər korpusu qarşısına da məhz həmin vəzifə qoyuldu.

Milli komandamızın əsasını təşkil edən "Atasport" klubu 3 il dalbadal Avropa Klub Çempionlarının Kuboku uğrunda turnirdə bir qayda olaraq 4-cü yeri tutsa da 2009-cu ildə anoloji yarışın bürünc medalına layiq görülüb. Bir il sonra Almaniyada yeni formatda keçirilən Avropa Çempionlar Liqası Turnirində "Atasport" klubu ilkin mərhələdə 12 kollektiv arasında uğurlu çıxış edərək "Dördlər finalına" vəsiqə qazanıb. Lakin bir neçə ay sonra Hollandiyada təşkil olunan həlledici turnirdə qızlarımız güclü rəqiblərinə ciddi müqavimət göstərə bilməyərək, yekunda qitənin 4 ən güclü klubu sırasında sonuncu yeri tutmaqdan artığına gücləri çatmayıb.

Növbəti qitə çempionatında(2009-cu il) mübarizə aparan qadın hokkeyçilərdən ibarət milli komandamız yenidən Hollandiyanın Amsterdam şəhərində yarışmalı olub. Mükafatsız qalan yığmamız 6-cı yeri tutmaqla yalnız güclülər dəstəsində öz yerini mühafizə edə bilib.

2011-ci ildə Almaniyada keçirilən Avropa çempionatında koreyalı məşqçilərin rəhbərliyi altında çıxış edən millimiz nəinki 8 yüksək yer tutmaqla növbəti Olimpiya Oyunlarına vəsiqə qazanmadı, hətta qitənin 8 ən güclüsü sırasındakı yerini də əldən verdi. Məhz bu uğursuzluqdan sonra federasiya rəhbərliyi əcnəbi məqçilərlə yollarını ayırdı .

London Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün millimiz 2012-ci ilin aprel ayında Yaponiyada 2-ci dəfə 6 komanda arasında olimpiya təsnifat turnirində mübarizə aparıb. Maraqlıdır ki, əvvəlki illərdən fərqli olaraq bu dəfəki yarışda komandamızın baş məşqçisi postuna yenidən Adil Paşayev təyin olunub və heyətin əsasını isə legionerlər deyil, yerli gənc hokkeyçilər təşkil edirdilər. 4 il əvvəl Bakıda olduğu kimi, millimiz yenə də həlledici final oyununda Yaponiya hokkeyçilərinə minimal hesabla(0:1) uduzaraq Londona gedə bilmədi.

Beynəlxalq Hokkey Federasiyası mötəbər yarışların keçirilməsi sistemində etdiyi dəyişiklərə görə Braziliyanın Rio de Jeneyro şəhərində 31-ci Yay Olimpiya Oyunlarında və iki ildən bir keçirilən növbəti dünya çempionatlarında iştirak etmək qaydalarında yenilik aparıb. Bir sıra idman növlərində olduğu kimi, otüstü hokkeydə də qeyd edilən məsul yarışlara seçim "Dünya Hokkey Liqası" adı altında təşkil olunan turnirlər vasitəsi ilə həyata keçirilməyə başlandı.

2012-ci ilin noyabr ayında kişi otüstü hokkeyçilərimiz Qətərin paytaxtı Doha şəhərində keçirilən Dünya Hokkey Liqası turnirinin ilkin mərhələsində Qətər(5:4), Oman(3:1), Türkiyə (4:0) və Şri Lanka (4:3) hokkeyçilərinə qalib gələrək, 100 faizli nəticə ilə I raundda yarışmaq hüququna sahib olublar.

Kişi otüstü hokkeyçilərimiz 2014-cü ilin sentyabr ayında Omanın paytaxtı Muskat



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

şəhərində keçirilən Dünya Hokkey Liqası turnirinin I raundunda iştirak edib.Oman, İran İR-sı və Tailland hokkeyçiləri ilə gərgin mübarizədə millimiz I yeri tutub. Reqlamentə görə həmin turnirin qalibi adını qazanan Azərbaycanın seçmə komandası 2015-ci il martın 7-dən 15-dək Cənubi Afrika Respublikasının Keyptaun şəhərində 8 komandanın iştirakı ilə Dünya Hokkey Liqası turnirinin II raundunda mübarizə aparmaq hüququna sahib olub. Həmin mərhələdə yığmamız Belarus, Çin XR, Çexiya, Misir, Fransa, CAR və İsveçrə hokkeyçiləri ilə birgə 2 yarımqrupda yarışmalı idi.

Qadın hokkeyçilərdən ibarət milli komandamız isə yüksək reytinqə malik olduğuna görə Dünya Hokkey Liqası yarışının 2-ci mərhələsindən mübarizəyə qoşulacaqdı. Millimiz 2015-ci il fevralın 14-dən 22-dək Uruqvayın Montevideo şəhərində Trinidad Tobaqo, Fransa, Keniya, İtaliya, Meksika, Uruqvay və Dominikan Respublikasının idmançıları ilə 2 yarımqrupda mübarizə aparacaqdı.

Xanım hokkeyçilərdən fərqli olaraq kişi komandalarımızın uğurları çox da yüksək deyil. Bunun da səbəbləri aydındır. Yuxarıda qeyd etdiyimiz kimi, 2001-ci ildə federasiya rəhbərliyində aparılan struktur dəyişikliklərindən sonra milli komandada gəncləşmə prosesi həyata keçirildi və heyətdə yalnız yaşı 20-yə qədər hokkeyçilərin çıxış etməsinə icazə verildi. Uzun fasilədən sonra kişi hokkeyçilərdən ibarət yığmamız 2005-ci ilin sentyabr ayında Maltada Avropa çempionatının "Çelenc" yarışlarına qoşularaq finala qədər irəlilədi. Lakin danimarkalılarla həlledici görüşdə hakimlərin kobud səhvləri və Təşkilat Komitəsinə rəhbərlik edənlərin yalan vədləri nəticəsində komandamız daha yüksək divizyona qalxa bilmədi(əslində finala vəsiqyə sahib olan hər iki komanda birbaşa növbəti divizyona çıxmalı idi).

2007-ci ildə Rusiyanın Kazan şəhərində analoji yarışa qoşulan kişi hokkeyçilərimiz 8 komanda arasında IV yeri tutdu. İki il sonra Xorvatiyanın Zaqreb şəhərində təşkil edilən qitə çempionatında da yığmamız həmin nəticəni təkrarladı.

2011-ci ildə Azərbaycanın kişi otüstü hokkeyçilərdən ibarət milli komandası İtaliyanın Kataniya şəhərində Avropa çempionatının "Çelenc" yarışında bütün rəqiblərinə qalib gələrək baş mükafata sahib olub və "Trofi" divizyonuna vəsiqə əldə edib. Kişilərdən ibarət "Atasport" klubu da son 3 ildə Avropa Klub Çempionatlarında 3 divizyon irəliləyərək "Çelenc I" yarışlarında oynamaq hüququ qazanıb. "Akkord" (kişilər) klubu da analoji yarşda dalbadal 2 pillə irliləyərək növbəti mövsüm "Çelenc II" turnirində mübarizə aparmaq hüququna sahib oldu.

2013-cü ildə Avstriyanın paytaxtı Vyana şəhərində milli komandamiz daha bir uğura yaxın olub. İlk dəfə Avropa çempionatının "Trofi" yarışlarına qoşulan kişi otüstü hokkeyçilərimiz yüksık divizyona vəsiqə qazanmağın bir addımlığında büdrəyiblər.İlkin mərhələ oyunlarını uğula başa vuran millimiz yarımfinal görüşündə Rusiya təmsilçilərinə məğlub olaraq yekunda IV yeri tutub. Ancaq həmin oyundakı qələbə həmyerlilərimizin finala çıxmasına və növbəti mövsümdən Dünya Hokkey Liqası Turnirinin güclüləri ilə birgə mübarizə aparmasına imkan verə bilərdi.

Maraqlıdır ki, qadın otüstü hokkeyçilərdən ibarət yığmamız da Fransada keçirilən Avropa çempionatında ("Trofi") həmin aqibəti yaşayıb. İlkin mərhələdə inamla çıxış edən xanım hokkeyçilərimiz yarımfinalda gözlənilmədən o qədər də güclü rəqib sayılmayan Polşa millisinə 3:4 hesabı ilə uduzaraq finala çıxa



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

bilməyiblər.III yer uğrunda Azərbaycan- Fransa matçı isə kifayət qədər gərgin keçib. Oyunun əsas vaxtında 4:4 hesabı qeydə alındığından qalibi aşkar etmək üçün Reqlamentə gorə “bullitlər” seriyasından istifadə edilib. Qadın hokkeyçilərimiz bu imkandan səmərəli istifadə edərək Avropa çempionatının “bürünc” medalına layiq görülüblər. Ancaq qarşıya finala çıxmaq vəzəfəsi qoyulduğundan bu nailiyyət komanda üzvləri tərəfindən yüksək dəyərləndirilməyib.

2014-cü il mayın axırlarında Bakının kişi və qadın otüstü hokkeyçilərdən ibarət “Atasport” və “Akkord” komandaları Avropa Klub Çempionatı turnirlərində mübarizə aparıblar. Belarus Respublikasının paytaxtı Minsk şəhərində keçirilən qitəmiqyaslı yarışın "Trofi" divizyonunda çıxış edən qadın otüstü hokkeyçilərdən ibarət “Atasport” klubu Ukraynanın "Sumçanka", İrlandiyanın “Pembrok Vandeders” və Belçikanın “Royal Vellington” komandaları ilə oyunlarda qrup ikincisi olmaqla yekunda digər qrupda II nəticə göstərən yerli “Minsk” komandası ilə III yer uğrunda yarışıb və təəssüf ki, hokkeyçilərimiz həmin oyunda 1:4 hesabı ilə uduzublar. Bu isə təmsilçimizin yekunda yalnız IV yeri tutmasına səbəb olub.

Ölkəmizin kişi otüstü hokkeyçilərdən ibarət “Atasport” klubu 2013-cü ildə “Trofi” divizyonunda ilk debütünü III yeri tutmaqla qeyd etsə də bu mövsüm həmin nəticəni yüksəldə bilməyib. İrlandiyanın paytaxtı Dublin şəhərində güclülər qrupuna çıxmaq vəzifəsini həll etməli olan idmançlarımız bu istəyə çox yaxın olublar. Lakin hokkeyçi qızlarımız kimi kişilər də top fərqinə görə “B” qrupunda II yeri tutub, yekunda isə turniri III nəticə ilə başa vurublar.

4 il əvvəl qitəmiqyaslı yarışın “Çelenc 4” divizyonunda debüt edən Bakının kişi hokkeyçilərdən ibarət “Akkord” klubu ildə 1 pillə irəliləməklə ötən mövsüm “Çelenc I” turnirində çıxış etmişdir. Lakin, şirkət təmsilçisi özünəməxsus rekordu davam etdirə bilməyib və “Trofi” divizyonuna vəsiqə istəyi reallaşmayıb. Elə bu səbəbdən də “Akkord” növbəti mövsümdə yenidən İsveçrənin Vettingen şəhərində “Çelenc I” divizyonunda mübarizə aparmalı olub. Təəssüf ki, bu dəfə “Akkord” daha zəif çıxış edərək ilkin qrup mərhələsində və yekunda pley-off oyununda da uduzaraq VIII yeri tutub və gələn il “Çelenc II” divizyonunda yarışmaq məcburiyyətində qalıb.

2015-ci ildə Azərbaycan otüstü hokkeyçilərindən ilk olaraq beynəlxalq yarışlarda mübarizəyə Bakının qadınlardan ibarət “Atasport” klubu qoşulub. Təmsilçilərimiz həmin ilin aprel ayında Hollandiyanın Hertogenboş şəhərində Avropa Çempionlar Kuboku uğrunda turnirin 8 ən güclüsü sırasında yarışıb. Təəssüf ki, həmyerlilərimiz ilkin mərhələdə hər 3 rəqibinə uduzaraq qrup sonuncusu olublar. Beləliklə, “Atasport” klubu 2005-ci ildən “daimi qeydiyyatda” olduğu qitəmiqyaslı Çempionlar Kuboku uğrunda turnirin 8 ən güclüsü sırasındakı yerini itirərək növbəti mövsümdən bir pillə aşağı - “Trofi” divizyonunda mübarizə aparmalı olacaq.

Təəssüf ki, həmin yarış otüst hokkeyimizin tarixində ən zəif və yaddaqalan olub. Belə demək mümkünsə federasiya rəhbərliyi sanki hər şeyi bitmiş saydı. Bu barədə bir qədər sonra söhbətimizi davam etdirəcəyik.

Məlum həqiqətdir ki, böyük idmanda uğur qazanmaq üçün ən vacib şərtlərdən biri ehtiyat qüvvə hazırlanmasına diqqət yetirməkdir.Olimpiya idman növü olan otüstü hokkeydə yeni nəsil idmançıların hazırlanması da federasiya rəhbərliyinin əsas fəaliyyət proqramına çevrilmişdi. Bu qayğının



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

nəticəsində son 12 ildə 21 yaşınadək qız və oğlan hokkeyçilərdən ibarət Azərbaycanın seçmə komandaları 2 ildən bir keçirilən Avropa birinciliklərində 6 dəfə ölkəmizi təmsil ediblər. 2011-ci ilin iyul ayında 18 yaşınadək oğlan və qızlardan ibarət yığma komandalarımız da Avropa birinciliyində mübarizəyə qoşulublar.

2010-cu ildə Azərbaycan hokkeyi tarixində ilk dəfə olaraq 16 yaşınadək oğlanlardan ibarət seçmə kollektivimizin də qitə birinciliyində çıxış etməsinin bünövrəsi qoyulub. 4 il sonra bu yaşda çıxış edən hokkeyçilərimiz artıq uğur qazanıblar. 2014-cü ilin iyun ayında onlar Litva Respublikasının paytaxtı Vilnüs şəhərində keçirilən Avropa çempionatında uğurla yarışaraq iki ildən bir təşkil olunan həmin birinciliyin güclülər dəstəsinə vəsiqə qazanıb.Hokkeyçilərimiz 2 qrupda mübarizə aparan 8 komanda arasında Cəbəllütariq hokkeyçilərinə 3:2, ermənilərə 4:1 və meydan sahiblərinə 3:1 hesabı ilə qalib gələrək "B" qrupunda 100 faizli nəticə ilə I yeri tutub. Bu nailiyyət isə Azərbaycanın 16 yaşınadək hokkeyçilərdən ibarət komandasının pley-offda İsveçrə təmsilçilərinə məğlub olmasına baxmayaraq, növbəti mövsümdən(2016) qitənin 8 ən güclüsü sırasında yarışmaq hüququ verib.

Azərbaycan Otüstü Hokkey Federasiyası bu olimpiya idman növünün respublikamızda daha geniş inkişafı və kütləviliyinin artırılması məqsədilə 2013-cü ildən Bakı və Sumqayıt şəhərləri üzrə İdman və Təhsil İdarələri ilə birgə yeni layihə həyata keçirir. Layihəyə əsasən Bakı və Sumqayıt şəhərlərinin bir sıra orta məktəblərində otüstü hokkey üzrə dərsdənkənar məşğələlər təşkil olunub. Ötən ilin noyabr ayından həyata keçirilən layihə çərçivəsində həmin şəhərlərin ümumtəhsil məktəblərindən seçilən fiziki tərbiyə müəllimlərinə otüstü hokkey üzrə nəzəri və praktik məşğələlər keçilib. Əsas məqsəd şagirdlər arasında otüstü hokkeyin geniş yayılması və dərsdənkənar məşğələlərdə fərqlənən oğlan və qızların peşəkar məşqçilərin rəhbərliyi altında bölmələrdəki təlimlərə cəlb olunmasıdır.

Bu layihənin həyata keçirilməsi üçün Azərbaycan Otüstü Hokkey Federasiyası tərəfindən Bakının 19 məktəbində fəaliyyət göstərən bölmə üzvləri hokkey ağacları və toplarla tam təchiz edildi. İyunun 1-də isə seminar məşğələlərində fəallıq göstərdiklərinə görə Bakı və Sumqayıt şəhərlərinin 23 orta məktəb müəlliminə Beynəlxalq Hokkey Federasiyası Məşqçilər Şurasının üzvü Ali Zahidin (Pakistan) imzası ilə "C" kateqoriyalı məşqçi sertifikatı verilib.

Ümumtəhsil məktəblərində fəaliyyət göstərən fiziki tərbiyə müəllimlərinin otüstü hokkeyin öyrədilməsi işinə qiymət vermək üçün 2014-cü il noyabrın 1-dən 9-dək Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, Bakı şəhəri üzrə Təhsil İdarəsi, eləcə də Otüstü Hokkey Federasiyası birgə 2000-2002-ci il təvəllüdlü oğlan və qızlardan ibarət komandalar arasında Azərbaycanda otüstü hokkeyin yaradılmasının 45 illiyi münasibəti ilə məktəblilərin festivalını keçirib. Yarışda qızlardan ibarət 8, elə o qədər də oğlan komandası 2 qrupda dairəvi sistemlə mübarizə aparıb. Yekunda yaş qrupları üzrə ilk 3 yerə layiq görülən oğlan və qızlardan ibarət komandalar fəxri diplomlara, kubok və nominasiyalar üzrə mükafatlara layiq görülüblər.

Təəssüf ki, otüstü hokkey təsərrüfatında nəzərdə tutulan bütün işlər, yarışlar,müxtəlif layihələr 2015-ci ildə yarımçıq dayandırıldı. Bütün bu faktları sadalamaqla olimpiya idman növü olan otüstü hokkeyin ölkəmizdə geniş yayılması barədə cavabdeh qurumlara məlumat çatdırmaq istəyirik. Milli komandalarımız,



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

klublarımız, gənclərdən və yeniyetmələrdən ibarət yığmalarımız beynəlxalq miqyaslı yarışlardan kənarda qaldılar. Bütün bunlar azmış kimi kişilərdən və qadınlardan, eləcə də müxtəlif yaşlı oğlan və qızlardan ibarət komandalar ölkədaxili yarşlarda da mübarizələrini dayandırdılar. Ancaq bu hal nədənsə heç kimi narahat etmədi. Yerlərdə məşq keçən müəllimlər ilk vaxtlar müəyyən müddət gözləmə mövqeyində olsalar da artıq onların da əlləri işdən soyuyub. Amma, əvvəl-axır bütün bunlar baş verməli idi. Çünki, ölkəmizdə bu olimpiya idman növü idman məkləblərində deyil, federasiyanın təşkil etdiyi bölmələrdə inkişaf etdirilirdi biganəlik davam edirdi. Bir vaxtlar qadın hokkey komandası məhz Bədən Tərbiyəsi və İdman Akademiyasının nəzdindəki İdman Klubunda fəaliyyətə başlamışdırsa, sonralar bu növ üzrə mütəxəssislərin hazırlanmasına da laqeydlik yaranmışdı. Çünki, son illər hokkeyçilərin ali təhsil almaları işi yarıtmaz vəziyyətdə idi. Bu sahə üzrə instituta daxil olanlar yalnız futbol ixtisası ilə təkmilləşmək məcburiyyətində qalırdılar.

Bir vaxtlar federasiya rəhbərliyi əcnəbi oyunçuları Azərbaycana dəvət etməklə yüksək nəticə qazanmağa üstünlük verirdisə, yeni nəsl hokkeyçilərin hazırlanması işinə çox gec başlandı. Ədalət naminə qeyd etməliyik ki, otüstü hokkey SSRİ dövründə Azərbaycanda daha populyar idi. Adicə Sumqayıt məktəblərində “xüsusi hokkey sinifləri”- nin fəaliyyət göstərdiyini xatırlayanlar hələlik aramızda çoxdur. Amma belə getsə, müəyyən müddət keçəndən sonra nəinki “xüsusu hokkey siniflərini”, hətta bu növün mövcudluğunu belə xatırlayanlar olmayacaq. Odur ki, “idman ölkəsi” imici qazanan Azərbaycanda otüstü hokkey təsərrüfatı ətrafında yaranan problemin aradan qaldırıması üçün bu gün Respublika Gənclər və İdman nazirliyi , habelə Milli Olimpiya Komitəsi üzərinə mühüm vəzifələr düşür.

Məlum həqiqətdir ki, ölkədə istənilən idman növünün geniş inkişafı və bu sahədə uğurli nəticələr etmək üçün ən vacib şərt idman qurğularının, stadionların və sadə meydançaların mövcudluğudur.

Təklif: - Olimpiya idman növü olan otüstü hokkey bölmələrinin ölkəmizdəki fəaliyyəti üçün stadionların, sadə, kiçikölçülü meydançaların yaradılmasına da qayğı göstərilmədir;

- Bakıda və Masallıdakı stadionlar müasir ölçülərə cavab versə də Sumqayıt şəhərindəki meydançnın ölçüləri kişik olduğuna görə müasir standartlara uyğun deyil;
- Bu yaxınlara qədər Bakı və Sumqayıt şəhərlərindəki orta məktəblərin nəzdində fəaliyyət göstərən otüstü hokkey bölmələrinin məşğələləri üçün baha qiymətə əldə olunaraq paylanmış hokkey ağaclarının və topların məhv olmasına imkan veməmək;
- Federasiyanın fəaliyyətinin bərpası üçün əməli tədbirlər görmək;
- Yaxın illərə qədər yerlərdə fəaliyyət göstərən otüstü hokkey bölmələrinin UGİM-lərdə inkişaf etdirilməsinə nail olmaq və s.

Nəticə: Araşdırmalardan belə qənaətə gəlmək olar ki, olimpiya idman növü olan otüstü hokkey məşqlərinin peşəkarlığa yaxınlaşdırılması həm bu sahədə yüksək nəticələr qazanmağa, həm də uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün bütün vasitə və metodlardan istifadə etmək lazımdır. Ancaq işə bu günki kimi laqeydlik, biganəik və baxımsızlıq ucbatından otüstü hokkeyimiz ətrafında olan- qalanlar itib gedəcək.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

**Ədəbiyyatlar:**

1. R.Əliyev, Y. Nuriyev -"İdman məktəblərində otüstü hokkey üzrə təlim-məşq prosesinin təşkili və keçirilməsi", Tədris proqramı,. Mütərcim nəşriyyatı, Bakı ş. 2010-cu il
2. R.Əliyev, Y.Nuriyev "Otüstü hokkeyçilərin hazırlanmasının nəzəri əsasları" Metodik vəsait, Mütərcim nəşriyyatı, Bakı ş. 2011-ci il
3. Y. Nuriyev " Azərbaycan otüstü hokkeyinin 45 yaşı tamam olur" "Sportsman" jurnalı, Bakı ş.2014-cü il, səh. 31-35
4. Y. Nuriyev " Otüstü Hokkey Federasiyasının" saytı "Operativ məlumatlar" 2008-2015-ci illər
5. Y.Nuriyev –Otüstü hokkey barədə məlumatlar. "Olimpiya dünyası" qəzeti - 2003-2015-ci il



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.